# Azərbaycanda şahmatın inkişafı ilə bağlı dövlət proqramının yekunları müzakirə olunub

Martın 2-də Nizami Kino Mərkəzində "2009-2014-cü illər üçün Azərbaycan Respublikasında şahmatın inkişafı" Dövlət Proqramının yekunları ilə bağlı tədbir təşkil olunub.

AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Şahmat Federasiyasının prezidenti Elman Rüstəmov, gənclər və idman naziri Azad Rəhimov, təhsil naziri Mikayıl Cabbarov və digər şəxslər iştirak ediblər.

Əvvəlcə Azərbaycanın dövlət himni səsləndirilib, ölkəmizdə şahmatın inkişafına dair videoçarx nümayiş olunub.

Gənclər və idman naziri Azad Rəhimov tədbirdə çıxış edərək Azərbaycan Prezidenti İlham Əliyevin 2009-cu il 5 may tarixli Sərəncamı ilə təsdiq olunan dövlət proqramının uğurla reallaşdırıldığını diqqətə çatdırıb. Nazir qeyd edib ki, bu sərəncamın Bakıda keçirilən və ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunan möhtəşəm Azərbaycan-FİDE dünya matçı ərəfəsində imzalanması təsadüfi deyil. Məhz ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə ötən əsrin 70-ci illərindən etibarən respublikamızın 60-dək şəhər və rayonunda uşaq-gənclər şahmat məktəbləri tikilib istifadəyə verilib. Hələ Sovet İttifaqı dövründə dünya şahmat tacının Azərbaycana gətirilməsində də Heydər Əliyevin əvəzsiz xidmətləri olub.

Nazir vurğulayıb ki, Azərbaycanın dövlət müstəqilliyinin bərpasından ötən müddətdə şahmatçılarımız müxtəlif beynəlxalq yarışlarda, dünya və Avropa çempionatlarında ölkəmizi layiqincə təmsil edərək yüksək nəticələrə nail olub, 80-dən çox medal qazanıblar. Bu medallardan 32-si qızıldır.

Qeyd olunub ki, uğurla həyata keçirilən dövlət proqramının icrası müddətində şahmat üzrə 40-dək yarış, o cümlədən Azərbaycan birincilikləri, bır sıra yerli və beynəlxalq turnirlər keçirilib. Nazir bu yarışlar arasında Vergilər Nazirliyinin dəstəyi ilə 2014-cü və 2015-ci illərdə Avropa çempionu Vüqar Həşimovun xatirəsinə həsr edilmiş yüksək kateqoriyalı iki beynəlxalq turnirin keçirildiyini xüsusi vurğulayıb.

Hazırda Azərbaycanda 25 beynəlxalq qrossmeysterin, 16 beynəlxalq ustanın, 20 FİDE ustasının, 15 beynəlxalq hakimin və 16 FİDE hakiminin olduğunu qeyd edən A.Rəhimov deyib: "Azərbaycan şahmatı dünya arenasında yüksək səviyyəyə çatıb. Məhz bunun nəticəsidir ki, şahmat üzrə yığma komandamız 2014-cü ildə Norveçdə keçirilmiş Ümumdünya Şahmat Olimpiadasında 179 ölkə arasında 2-5-ci yerləri bölüşdürüb".

A.Rəhimov Təhsil Nazirliyi ilə birgə həyata keçirilən tədbirlər nəticəsində respublikanın 70-dən çox orta ümumtəhsil məktəbində şahmat fənninin tədrisinə başlanıldığını bildirib. Nazir Azərbaycanda şahmatın inkişafına bundan sonra da diqqət göstəriləcəyini söyləyib.

Şahmatın Azərbaycanda sürətlə inkişaf etdiyini deyən təhsil naziri Mikayıl Cabbarov bildirib: "Şahmat yeganə idman növüdür ki, Azərbaycanda orta məktəblərdə tədris edilir. İdmanın bu növü şagirdlərdə sərbəst düşünmə qabiliyyətinin, çevik qərar qəbuletmə, mürəkkəb şəraitdə taktika seçmək kimi vərdişlərin inkişafına təkan verir. İnsanların şahmatdan qazandığı keyfiyyətlər karyera seçimində, düzgün qərarların qəbul edilməsində mühüm rol oynayır".

Azərbaycan Şahmat Federasiyasının prezidenti Elman Rüstəmov idmanın ən qədim növlərindən olan şahmatın ölkəmizdə inkişafına dövlət tərəfindən yüksək diqqət və qayğı göstərildiyini vurğulayaq qeyd edib: "Azərbaycanda şahmatın inkişafına dövlət səviyyəsində diqqətin göstərilməsi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Məhz ulu öndərin diqqət və qayğısı sayəsində çox qısa müddətdə Azərbaycanda böyük şahmat infrastrukturu yaradılıb".

E.Rüstəmov bildirib ki, Azərbaycanda şahmatın yeni inkişaf strategiyası Prezident İlham Əliyev tərəfindən reallaşdırılıb. İdmanın bütün növləri kimi şahmat da sürətlə inkişaf edir, bu sahədə mühüm nailiyyətlər qazanılır. Azərbaycan şahmat ölkəsi kimi artıq özünü təsdiq edib və mötəbər beynəlxalq yarışlara evsahibliyi edən məkan kimi tanınır. Bu uğurların nəticəsidir ki, 42-ci Ümumdünya Şahmat Olimpiadası bu il Azərbaycanda keçiriləcək.

Federasiya prezidenti deyib ki, bu dövlət proqramı başa çatsa da müəyyənləşdirilən prioritetlər daim diqqət mərkəzində saxlanılacaq. Şahmatın Azərbaycanda daha da inkişaf etdirilməsi, mühüm nailiyyətlərin əldə edilməsi daim əsas vəzifə olaraq qalacaq.

Çıxışlardan sonra dövlət proqramı çərçivəsində görülən işlər ətraflı təhlil edilib, geniş fikir mübadiləsi aparılıb.